# Narkomaniya ilə mübarizə: cəmiyyətin birgə məsuliyyəti

Narkotik insan həyatını məhv edən, cəmiyyətin mənəvi dəyərlərini və sosial əsaslarını sarsıdan təhlükəli bir problemdir. Bu bəla yalnız narkotik maddə qəbul edən şəxsin taleyinə təsir göstərmir, eyni zamanda narkotik vasitə istifadə edən şəxslərin ailələrinin dağılmasına, cinayət hallarının artmasına və sosial təhlükəsizliyin zəifləməsinə səbəb olur. Bu baxımdan narkomaniya ilə mübarizə Azərbaycan Respublikasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir.

Narkotik asılılığının formalaşmasında müxtəlif amillər rol oynayır. Psixoloji boşluq, ailə nəzarətinin zəifliyi, yanlış dost çevrəsi, gələcəyə inamsızlıq və asudə vaxtların doğru dəyərləndirilməməsi insanları bu təhlükəli yola sürükləyən əsas amillərdəndir. Xüsusilə gənclərin özlərini sübut etmək istəyi, narkotikə qarşı olan maraq hissi və narkotikin təsirinə tez düşmələri səbəbindən gənclər risk altındadırlar. Əksər hallarda zərərsiz görünən bir seçim zamanla insanın iradəsini əlindən alan ağır asılılığa çevrilir.

Narkotik maddələrin orqanizmə vurduğu zərər təkcə fiziki sağlamlıqla məhdudlaşmır həmçinin mənəvi zərər də vurur. Bu maddələr insanın düşünmə qabiliyyətini zəiflədir, psixoloji tarazlığını pozur və davranışında aqressiya yaradır. Asılı vəziyyətə düşən şəxs ailə və cəmiyyət qarşısında öz məsuliyyətini dərk etməkdə çətinlik çəkir, sosial münasibətlərdən uzaqlaşır və getdikcə tənhalaşır. Nəticədə narkomaniya insanı həm fiziki, həm də mənəvi baxımdan insanı tükəndirir.

Bu problemlə mübarizədə yalnız cəza tədbirləri yetərli deyil. Qanunvericilik narkotiklərin qanunsuz dövriyyəsini məhdudlaşdırsa da, problemin qarşısını almaq üçün əsas diqqət maarifləndirməyə yönəldilməlidir. Xüsusilə son 5 ildə narkomaniyaya qarşı maarifləndirmə tədbirləri olduqca genişləndirilmişdir. Təhsil müəssisələrində, gənclər mərkəzlərində və ictimai tədbirlərdə narkomaniyanın fəsadları barədə açıq və səmimi müzakirələrin aparılması gənclərin düzgün seçim etməsinə kömək edir. Məlumatlı gənc təhlükənin fərqində olur, yanlış addımlardan uzaq durur və ətrafındakı insanları bu zərərli vərdişlərdən uzaq tutur.

Ailə mühiti də narkomaniyaya qarşı mübarizədə mühüm rol oynayır. Valideynlərlə övladlar arasında sağlam ünsiyyətin qurulması, qarşılıqlı etimad və diqqət gəncləri zərərli vərdişlərdən qoruyan əsas amillərdəndir. Bundan əlavə, idmanla məşğul olmaq və sağlam həyat tərzi gənclərin bu bəladan uzaq durmalarına və öz potensiallarını müsbət istiqamətdə inkişaf etdirməsinə şərait yaradır.

Narkotik asılılığdan əziyyət çəkən şəxslərin yalnız cəzalandırılması deyil, onların müalicəsi və reabilitasiyası da vacibdir. Tibbi müalicə və psixoloji dəstək şəxslərin yenidən sağlam həyata qayıtmasına imkan yaradır. Cəmiyyətin onlara qarşı uzaqlaşdırıcı mövqedə deyil, yaxınlaşdırıcı mövqedə olması həmin şəxslərin müalicə olunaraq yenidən cəmiyyəti qazandırılması üçün mühüm amildir.

Dövlətimiz narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə hüquqi mexanizmlər tətbiq edir. Qanunvericilikdə narkotiklərin istehsalı, saxlanması və satışı ağır cinayət kimi qiymətləndirilir. Hüquq-mühafizə orqanları tərəfindən mütəmadi əməliyyatlar keçirilir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq isə narkotik qaçaqmalçılığına qarşı mübarizəni daha effektiv edir. Ölkəmizdə ilk dəfə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər ümummilli lider Heydər Əliyevin 1996-cı il 26 avqust tarixli Fərmanında öz əksini tapmışdır. Bu mübarizə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı narkomaniya ilə sistemli mübarizənin təşkili, cəmiyyətin maarifləndirilməsi və profilaktika tədbirləri müalicə və reabilitasiya işlərinin inkişaf etdirilməsi kimi məsələləri əhatə edir.

Nəticə olaraq qeyd etmək olar ki, narkomaniya ilə mübarizə davamlı və məqsədyönlü yanaşma tələb edir. Cəmiyyətin hər bir fərdi bu təhlükəyə qarşı mövqeyini açıq şəkildə ifadə etməli, sağlam həyata üstünlük verməlidir. Unutmamalıyıq ki, narkomaniyaya qarşı atılan hər addım gələcəyin qorunmasına xidmət edir. Sağlam cəmiyyət yalnız sağlam düşüncəli və məsuliyyətli fərdlər üzərində qurula bilər.

**Ali BABAZADƏ,**
**Qəbələ rayon prokurorunun köməkçisi vəzifəsi üzrə stajor.**

*Milli adət-ənənələrimiz*

# Hüzr məclisləri və bu günümüz

***Hər bir xalqın özünəməxsus adət-ənənələri vardır. Bu adət-ənənələr aid olduğu xalqın keçmişinin əks-sədasıdır, sabahının milli-mənəviyyat tarixidir. Elə buna görə də insan adət-ənənələrdən danışarkən "əvvəllər, keçmişlərdə" kəlmələrini işlədir. Ancaq orta yaşlı insanların xatırladığı adət-ənənələr, ünsiyyətlər evlərimizdən mərasim zallarına, "şadlıq" saraylarına köçmüşdür. Bütün diqqətimiz televizor ekranlarına, bilgisayar monitorlarına, əllərimizdəki balaca telefonlara demək olar ki, ömürlük həbs olunmuşuq.***

***Doğrudur, keçmiş adətlərimizin hamısını bu günə daşıya bilmərik. Ancaq bu günümüzlə səslənənləri həyatımızda yaşadıb gələcək nəsillərə ötürməliyik. Bu təkcə danışıqlarla deyil, daha çox mariflərdirmə, düzgün izah və mədəni dəvət yolu ilə qəbul və dərk edilməlidir. Cəmiyyət məhz bu zaman bu dəyərləri yenidən mənimsəyəcək və mərasimlər öz mahiyyətinə uyğun şəkildə keçirilməyə başlayacaq. Bu baxımdan Hacıalılı kənd məscidinin imamı Mehman Şafiyevlə qələmə aldığımız müsahibəmizi oxucularımıza təqdim edirik.***

***- Rayonumuza aid olan hər məkanda hüzr məclisləri eyni təşkil olunurmu? Fərqli cəhətlərlə qarşılaşırsınızmı?***

- Rayonumuzda adətə görə hüzr məclislərində hüzr yiyəsi dəfndən sonra ilk üç gündə çay və ehsan süfrəsi verirdi. Pandemiyadan sonra dəyişikliklər oldu və bu artıq adət halına keçmişdir. Qəbələ rayonu respublikamızda demək olar ki, yeganə məkandır ki, rayonumuzda və əksər kəndlərdə hüzr düşərkən dünyasını dəyişənin ailəsi üç gün çay və ehsan süfrəsi açmır və yalnız cümə axşamında ("odna" günü) çay və ehsan süfrəsi açır və imkanı daxilində bu süfrəyə dəvətlər edir.

Üç gün ərzində dünyasını dəyişənin ailəsi ziyarət edilir və təziyə verilir.

***- Rayonumuzda keçirilən hüzr məclislərində adət-ənənələrimizin zamanın tələbinə uyğun formalaşdırılması zamanı çətinliklər olurmu? Həmçinin hansı çətinliklərlə qarşılaşırsınız?***

- Adət-ənənələrimizi yaşatmaq hər bir kəsin mənəviyyat borcudur. Bu ənənələr yaşanılan zamanın tələbinə uyğun formalaşdırılarkən əlbətdə qarşılaşdığımız maneələr olur. Çətinlik dedikdə insanlar zəngin şəkildə (imkanından asılı olmayaraq) ehsan vermək istəyir və bunu özlərinə mənəvi borc sanırlar. Yəni bizim fikrimizcə hüzr sahiblərinin öz dünyasını dəyişmiş əzizinə dəbdəbəli şəkildə ehsan verməsi deyil, elə ehsan kimi insanlara faydası olan işləri, əməlləri həyata keçirmək daha məqsədəuyğundur. Məsələn, qapı önündə və s. işıqların çəkilməsi, həmçinin ağac əkmək, yol və su çəkilməsi və s. insanlara fayda verəcək ənənə saylar.

***- Respublikamız daxilində hüzr məclislərinin keçirilməsinə münasibətiniz?***

- Respublikamızın bir çox şəhər və rayonlarında yas mərasimləri dəbdəbəli şəkildə, bəzən toy mərasimi kimi keçirilir. Bu isə böyük bir israfçılıq sayılır. Peyğəmbərimiz (s.a.v) öz hədisi şərifində buyurur ki, üç gündən artıq yas yoxdur. Dinimizdə hüzr məclislərində belə israfçılığa yol verilməsi tövsiyə olunmur.

***- Qəbristanlıqlar bələdiyyə torpaqlarına aid sayılırmı? Dünyasını dəyişən insanların dəfn olunması və bununla əlaqədar ayrıca qiymət - zəhmətaqqı dəqiqləşdirilirmi?***

- Qəbristanlıq əraziləri bələdiyyə torpaqları sayılır. Dini qurumlarla iş üzrə Dövlət Komitəsi Nazirlər Kabinetinin təqdim etdiyi "Məzar yerləri və məzarlıqlar haqqında" qərar layihəsində dəfn xərcləri, yəni müavinət ayrılmışdır. Ancaq bu müavinət heç də bütünlüklə yas mərasimi üçün nəzərdə tutulmamışdır. Bu məzar üçün (respublikamızın böyük şəhərlərində) torpağın ayrılması, qəbrin qazılması, dəfn olunma və qəbirüstü abidələrin (məzar daşlarının) qoyulmasına aiddir. Əgər vəfat etmiş insanın iş yeri varsa, "dəfn pulu" vəsaiti iş yerindən verilir. Əgər təqaüdçüdürsə, həmin vəsait Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ödənilir. Rayonumuzda hər kəs dünyasını dəyişən əzizini vəsait ödəmədən qəbristanlıqda dəfn edir, yəni torpaq pulu verilmir. Çünki qəbristanlıqlar üçün bələdiyyə torpaqlarından sahə ayrılır. Ölünün yuyulması, dəfnə hazırlanmasında da dini nümayəndələrimiz Allah rızası üçün yaxından iştirak edirlər. Hüzr yiyəsi əziyyət çəkən insanlara zəhmətinə görə halallıq məqsədilə bəzən ödəniş edirlər.

***- Mehman əfəndi, bəs dəfn müavinətləri kimlərə şamil edilir?***

- Qanunvericiliyə əsasən məcburi dövlət sosial sığorta haqları hesabına dəfn üçün birdəfəlik sosial müavinət aşağıdakı şəxslər üçün verilir: Əmək pensiyaçıları, ömürlük müavinət alan dövlət qulluqçuları, yaşa görə müvinət alanlar, əlillər, ailə başçısını itirənlər, işsizlikdən sığorta ödənişi alanlar, işləyən və xeyrinə məcburi dövlət sosial sığorta haqları üzrə borcu olmayanlar, aktiv VÖEN-i olmasına baxmayaraq, məcburi dövlət sosial sığorta haqları üzrə borcu olmayanlar.

Bilirəm ki, dəfn üçün müavinətin məbləği də oxucularımız üçün maraqlıdır. Qanunla dəfn müvinətinin məbləği əmək pensiyaçıları üçün minimum pensiya məbləğinin 3 mislidir.

Digərləri üçün isə dəfn müavinətinin məbləği 500 manatdır. Vəfat edən həm işləyən,həm də pensiyaçıdırsa, müavinətlərdən biri ( məbləği böyük olan) ödənilir. Dünyasını dəyişən işləyənlər üçün dəfn müavinəti ilə yanaşı işəgötürən tərəfindən işçinin orta aylıq əməkhaqqının 3 misli həcmində onun vərəsələrinə müavinət ödənilir. Dəfn müavinəti müraciət edildikdə 10 gün müddətində ödənilir.

***- Qəbirüstü abidələr (daşlar) keçmişdə də qoyulurdumu? Dinimizdə ölüsünü tez-tez ziyarət etmək və məzar daşlarını bəzəmək tövsiyə olunurmu?***

- Qəbirüstü daşlar qədim zamanlarda indi yaşadığımız dövrdə olduğu kimi qoyulmamışdır. Qəbir daşları əvvəllər sadəcə adsız daşların, sonralar isə sadə daşlar üzərində oyma, qazılma üsulu ilə daşlara ad və soyadlar, həmçinin doğum və ölüm tarixləri yazılmaqla kifayət bilinmişdir. Dünyasını dəyişənlərin ziyarəti aid olduğu ailənin xarakterindən və ailə qanunlarından asılıdır. Bu işdə heç bir məhdudiyyət və ya qanun yoxdur. Həmçinin məzar daşlarının bəzədilməsi və gül dəstələrinin qoyulması da dinimizdə tövsiyə edilmir. Sadəcə bahar ömrünü belə yaşaya bilməyən və Vətən igidlərinin məzarlarının güllərlə əhatə olunması onların baharömrülülüyünü simvolizə edir. Əlbəttə bu bizim fikrimizdir. Çünki şəhid əzizləri bununla bir təskinlik tapırlar. Novruz bayramlarında məzarüstünə səmənilər, bayram şirniyyatları düzülür. Düşünmək lazımdır ki, onları yeyən heyvanlar və quşlardır. Onlar isə məzarüstünü və onun ətrafını bərbad hala salırlar. Dinimizdə belə adət- ənənələr yoxdur və belə düşüncələr də qadağandır. Məkkə və Mədinədə ziyarətdə olanlar əyani şəkildə orada məzarların sadə, heç bir yazısı olmayan baş daşlarını yəqin ki görmüşlər.

Məzarların üstünü abidə şəklində hazırlamaq və onların bəzədilməsi israfçılıqdır. Bu adətlər dinimizdə tövsiyə olunmur. İllər-bir neçə nəsil sonra o abidələr baxılmaz hala düşəcək, artıq əşyaya çevriləcəklər; bu danılmaz faktdır. Onu da qeyd edək ki, bu gün gül ilə məzarlarımızı ziyarət etmək dinimizdə yoxdur. Bu sadəcə adət şəklini almışdır.

**(Ardı 8-ci səhifədə).**

# Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı anım tədbirləri keçirilib

Şəki - Zaqatala Regional Təhsil İdarəsi və Qəbələ rayonu üzrə təhsil sektoru, ETİHİ Qəbələ rayon Komitəsi və ümumtəhsil məktəbləri tərəfindən Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş anım tədbirləri keçirilib.

Şükür Eyvazov adına Yemişanlı kənd tam orta və Kiçik Pirəli kənd tam orta ümumtəhsil məktəblərinin akt zalında baş tutan tədbirdə Qəbələ rayon üzrə təhsil sektorunun müdiri Arifə Bayramova, idarənin əməkdaşları, ETİHİ Qəbələ rayon Komitəsinin sədri Camal Qurbanov iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və Xocalı soyqırımı qurbanlarının, Vətən şəhidlərinin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Xocalı soyqırımı zamanı xalqımıza qarşı törədilmiş bəşəri cinayətlər barədə həqiqətləri gənc nəslin nümayəndələrinə çatdırmaq, vətən uğrunda canından keçənlərin xatirəsinə ehtiram nümayiş etdirmək və məktəblilərdə vətənpərvərlik hissini daha da gücləndirmək məqsədilə keçirilən tədbirdə faciənin tarixi haqqında məlumat verilib, videoçarxlar nümayiş etdirilib.

Çıxış edənlər bildirib ki, Xocalı soyqırımına düzgün siyasi qiymət verilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Daha sonra şagirdlər Xocalı faciəsində soydaşlarımızın başına gətirilən müsibətləri və vətənpərvərlik ruhunda səhnələşdirdikləri ədəbi-bədii kompozisiyaları təqdim ediblər.

Qeyd edək ki, Xocalı soyqırımı ilə bağlı Qəbələ rayon ümumtəhsil və məktəbəqədər təhsil müəssisələrində xüsusi dərslər, dəyirmi masalar, ədəbi-bədii kompozisiyalardan ibarət tədbirlər təşkil edilib, şagirdlərin əl işlərindən ibarət rəsm sərgiləri keçirilib, sənədli filmlər nümayiş etdirilib.

**"Qəbələ səsi"**